# Azərbaycan xalçaçılığı:
# KEÇMİŞDƏN GƏLƏCƏYƏ

**Bənzərsiz milli sərvətimiz olan xalça sənətimizi qədim zamanlardan bu günümüzə, bu günümüzdən isə gələcəyə daşımaq missiyası kimi şərəfli bir vəzifəni öz üzərinə götürən Azərbaycan xalçalarının yorulmaz tədqiqatçısı, Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Muradovun rəhbərlik etdiyi "Azər-İlmə" Xalçaçılıq Mərkəzi bu gün sözün əsl mənasında milli xalça sənətimizin ruhunu yaşadan, böyük məharətlə qədimliklə müasirliyin vəhdətini yaradan və onu daha təkmil bir formada gələcək nəsillərə çatdırmağı qarşısına məqsəd qoyan unikal bir mərkəzə çevrilmişdir.**



Burada nümayiş etdirilən və ta qədim zamanlardan bu günümüzə qədər o taylı, bu taylı Azərbaycanımızın müxtəlif guşələrində toxunan ecazkar xalça nümunələrinə tamaşa etdikcə bir daha əmin olursan ki, milli ruhumuzdan süzülüb gələn xalçalarımız tarixən insanları birləşdirən, onlar arasında kollektivçilik, dostluq hissləri aşılayan tətbiqi sənət növü kimi şöhrət qazanmışdır.

Heç də təsadüfi deyildir ki, Azərbaycanda xalçaçılığın inkişafı haqqında hələ neçə-neçə min illər bundan əvvəl Herodot, Klavdi Elian, Ksenofont və digər qədim dünya tarixçiləri məlumat vermişlər. Tarixi mənbələr sübut edir ki, Sasanilər dövründə (III-VII əsrlər) Azərbaycanda xalça sənəti daha da inkişaf etmiş, qədim tariximizin bu mərhələsində ipəkdən, qızıl-gümüş saplardan nəfis xalçalar toxunmuşdur.

Azərbaycan ərazisində qızıl-gümüş saplarla toxunan və qaşdaşla bəzədilən xalça istehsalı XVI-XVII əsrlərdə ənənəvi xarakter almışdır. Bu cür xovsuz xalçaların əsas istehsal mərkəzləri Təbriz, Şamaxı və Bərdə şəhərləri idi. Baha başa gəldiyindən həmin dövrdə əsasən feodallar üçün hazırlanan belə xalçalar "zərbaf" adlanırdı. Ümumiyyətlə, ta qədim zamanlardan Azərbaycanda toxunan xalçalar öz texniki xüsusiyyətlərinə görə xovlu və xovsuz xalça növlərinə bölünmüşdür. Tarixi mənbələrdən məlum olur ki, xovsuz xalçalar toxuculuq sənətinin ən erkən dövrünə təsadüf edir. Xovsuz xalçalar öz toxunma üsuluna, kompozisiya quruluşuna, ornament zənginliyinə və rəng koloritinə görə biri-birindən fərqlənən 8 növə bölünür: Palas, Cecim, Ladı, Kilim, Şəddə, Vərni, Zili, Sumax. Xovsuz xalçalar xovlulardan daha çox qədim tarixə malik olmaqla naxışı və parlaq koloriti ilə fərqlənir.

Milli xalça sənətimizin digər nümunələri olan xovlu xalçalara yerə döşənən və divardan asılan xalçaları, gəbələri, dəst xalı-gəbələri, namazlıqları və s. kimi növlər aid etmək olar. Xovlu xalçalar, ümumiyyətlə, xalçaçılıq sənətinin inkişafında ən yüksək mərhələni əks etdirir. Məişətdə işlətmək üçün nəzərdə tutulan pərdələr, taxtüstülər və digər bu kimi əşyalar da xovlu xalçalar növünə daxildir. Çoxsaylı kompozisiyalı sxemlərdə və zəngin ornamentli motivlərlə olan xovlu xalçalar digər xalça növlərindən xüsusilə seçilirlər. Eyni zamanda qeyd etmək yerinə düşər ki, xovlu xalçalar toxunma texnikasına görə daha mürəkkəbdir.

Artıq XIII-XIV əsrlərdə Azərbaycanın xalça və xalça məmulatları dünya miqyasında məşhurlaşmışdı. Xüsusi vurğulanmalıdır ki, XIV əsrdə Azərbaycanın nəfis naxışlı çoxlu xalça məmulatları dünyanın əsas mədəniyyət və incəsənət mərkəzlərindən sayılan Avropaya ixrac edilməyə başlandı. Bu heyrətamiz xalq tətbiqi sənəti nümunələri tez bir zamanda milli kaloriti və incə ornamentləri ilə Avropa rəssamlarının diqqətini cəlb etdi və onların yaratdıqları məşhur əsərlərdə öz əksini tapdı. Heç də təsadüfi deyildir ki, orta əsrlərə aid italyan, Niderland və alman rəssamlarının əsərlərində Şərq, o cümlədən Azərbaycan xalçaları mövzusuna dönə-dönə müraciət edilmişdir. XV əsr Niderland rəssamları Hans Memlinqin "Məryəm öz körpəsi ilə" tablosunda "Şirvan" xalçasının, yenə də həmin dövrdə Van Eykin "Müqəddəs Məryəm" əsərində "Zeyvə xalçası"nın, alman rəssamı Hans Holbeynin "Səfirlər" əsərində "Qazax" xalçasının və digər məşhur Avropa rəssamlarının əsərlərində, miniatürlərdə incə ornamentləri, zərif və nəfis naxışları ilə diqqəti cəlb edən Azərbaycan xalça nümunələrinin təsvirləri verilmişdir. XVI əsrdə Azərbaycanda olmuş ingilis səyyahı Antoni Cenkinson Şamaxıda Abdulla xanın yay iqamətgahındakı qızıl-gümüş saplarla toxunulmuş xalça haqqında məlumat verir. XVII əsr holland səyahətçisi Yan Streyts isə Şamaxı hakiminin atının üstünə salınan çulun qızıl saplarla toxunub mirvari və qiymətli qaş-daşlarla bəzədildiyini bildirir.

Tarixdən məlumdur ki, XVIII əsrin ikinci yarısında Azərbaycanın Şimal hissəsi kiçik feodal dövlətlərə - Şəki, Bakı, Quba, Qarabağ, İrəvan, Gəncə, Naxçıvan, Şirvan, Təbriz, Ərdəbil və s. xanlıqlara bölünməyə başladı. Xanlıqlar dövründə xalça istehsalı xeyli genişlənmiş, hər xanlığın özünün xalçaçılıq karxanası olmuşdur. Xanlıqlar dövründə xalçaçılıq sənətinin inkişafı gələcəkdə xalçaçılıq məktəblərinin adının yaranmasına zəmin yaratdı. Ümumiyyətlə, ta qədim dövrlərdən başlayaraq Azərbaycan xalçaları bir sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq 7 xalçaçılıq məktəbinə-Quba, Abşeron, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz xalçaçılıq məktəblərinə bölünür. Bu məktəblərin hər biri özünün rəngarəng, milli mənəvi zənginliyimizi nümayiş etdirmək baxımından sözün əsl mənasında zəngin tarixi keçmişimiz, bu günümüz və gələcəyimiz arasında körpü rolunu oynayan, nəsillərarası əlaqə funksiyasını şərəflə yerinə yetirən xalq yaradıcılığı məktəbidir. Heç də təsadüfi deyildir ki, 1872-ci ildə Moskvada keçirilən "Moskva - Politexnik" sərgisində və 1882-ci ildə Ümumrusiya sənaye və incəsənət sərgisində nümayiş etdirilən Bakı, Quba, Şamaxı, Gəncə, Şəki, Qazax, Cavad qəzası və başqa yerlərdən gətirilmiş xalça və xalça məmulatlarının ən yaxşı nümunələri qızıl, gümüş medallara layiq görülmüşdü.

Azərbaycan xalça sənətinin sonrakı inkişaf dövrü XX əsrin ikici yarısına, xüsusilə ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 1969-1982-ci illəri əhatə edən birinci və 1993-2003-cü illəri əhatə edən ikinci dövrünə təsadüf edir. Ümummilli Liderimizin ölkəmizə rəhbərliyinin hər iki dövründə bütövlükdə mədəniyyətin, o cümlədən xalçaçılığın inkişafına xüsusi diqqət yetirilmişdir. Qeyd etmək lazımdır ki, zaman-zaman zəifləyən, ayrı-ayrı tarixi mərhələlərin tələblərinə müvafiq olaraq, demək olar ki, tam tənəzzülə uğramış xalçaçılıq işi Azərbaycan müstəqillik əldə etdikdən sonra, xüsusilə 1993-cü ildə Azərbaycan mədəniyyətinin və incəsənətinin böyük hamisi, dahi rəhbərimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra yenidən dirçəlməyə başlamışdır. Ulu Öndərin dövlətçilik siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səyi nəticəsində isə xalçaçılığın inkişafının qanunvericilik bazası yaradılmışdır. 2004-cü il dekabrın 7-də "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq olunmuş, 2005-ci il fevralın 7-də həmin Qanunun tətbiq edilməsi barədə Prezident Fərmanı verilmişdir. Azərbaycan xalçalarının təbliği və nümayiş etdirilməsi məqsədilə Prezident İlham Əliyevin iştirakı ilə 2014-cü il avqust ayının 26-da Dənizkənarı Milli Parkın ərazisində unikal memarlıq xüsusiyyətlərinə malik olan Azərbaycan Xalçası Muzeyinin açılması da xüsusi qeyd edilməlidir.

Azərbaycan mədəniyyətinin, o cümlədən xalçaçılığın inkişafı və onun nailiyyətlərinin dünya miqyasında təbliği sahəsində ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın əməyi ölçüyəgəlməzdir. Mehriban xanımın rəhbərliyi ilə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20 illiyi münasibətilə Böyük Britaniyada, Fransada və Rusiyada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti günləri çərçivəsində təşkil edilən xalça sərgiləri böyük şöhrət qazanmışdır. Mehriban xanım Əliyevanın gərgin əməyi sayəsində Azərbaycan xalça sənəti 2010-cu il noyabrın 16-da UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.

Bu gün Azərbaycan xalçalarının unudulmaqda olan çeşnilərini bərpa etməkdə, milli xalçalarımızın bədii ənənələrini yaşatmaq və gələcək nəsillərə ötürməkdə, Azərbaycan xalçasının beynəlxalq miqyasda ticarətini təşkil etməklə layiqli şəkildə təbliğinə nail olmaqda "Azər-İlmə" Xalçaçılıq Mərkəzinin rolu böyükdür. Hazırda "Azər-İlmə"nin peşəkar xalçaçı-rəssamlardan, ustad toxuculardan, bərpaçı və boyaqçılardan, həmçinin peşəkar müəllimlərdən, respublikamızın müxtəlif bölgələrində fəaliyyətini şirkətlə əməkdaşlıq zəminində quran xalçaçılardan ibarət 700 nəfərlik kollektivi məhsuldar yaradıcılıq axtarışlarını davam etdirir. Şirkətin toxuduğu xalçalar 1997-ci ildə ABŞ-ın Atlanta, 1999-cu ildə Almaniyanın Hanover, 2003-cü ildə Rusiya Federasiyasının Moskva şəhərlərində uğurla sərgilənmiş, Amerika Birləşmiş Ştatları, Almaniya, Fransa, Türkiyə, Rusiya, Avstraliya, Yaponiya, İsveçrə, İtaliya, Norveç, Cənubi Afrika və digər ölkələrdəki muzeylərdə, şəxsi kolleksiyalarda Azərbaycanın səfiri, təmsilçisi olmuşlar.

"Azər-İlmə"nin rəhbəri Vidadi Muradovun baş redaktoru olduğu, 2011-ci ildən Azərbaycan, rus, ingilis dillərində nəşr olunan "Azərbaycan xalçaları" jurnalı tez bir zaman ərzində maraqlı yazıları, ekspedisiya materialları, rəngarəng rubrikaları, fotoşəkilləri və s. ilə həm respublikamızda, həm də onun hüdudlarından kənarda geniş oxucu kütləsi qazanmış, elmi ictimaiyyətin diqqətini cəlb etmişdir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə "Sənətşünaslıq" (protokol №10-R, 06.07.2012) və "Tarix" (protokol №05-R, 13.05.2015) ixtisasları üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin reyestri"nə daxil edilmişdir.

Əsrlər, illər, aylar, günlər ötdükcə zaman da dəyişir. Təbii ki, zamanla birgə insanlar da, zövqlər də dəyişir. Lakin elə dəyərlər var ki, onlar zamandan və məkandan asılı olmayaraq daim sabit qalır. Bütün zamanlar və məkanlar üçün öz aktuallığını, dəyərini qoruyan və gələcək nəsillərə ərməğan kimi ötürülən Azərbaycanın əvəzsiz milli sərvəti olan milli xalça sənətimiz da belə dəyərlərdəndir. Öz ilmələrində və naxışlarında xalqımızın qədim və müasir tarixini, mədəniyyətini yaşadan və gələcək nəsillərə çatdıran, hər dövrün nəbzini tutan, dəbi ilə ayaqlaşan, bəzən qərəzli münasibətlə üzləşsə belə öz gözəlliyini, saflığını qoruyan əzəli milli sərvətimiz-xalça sənətimiz dünya durduqca duracaq, Azərbaycanımıza daim başucalığı gətirəcəkdir.

✍ **Elçin Zaman, *"İki sahil"***

***Yazı "Azər-İlmə" Xalçaçılıq Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun birgə təşkil etdikləri fərdi jurnalist yazıları müsabiqəsinə təqdim edilir***